***20 yanvar***

Ayağı altında “Qızıl” ordunun,
Küçələr al rəngdə qana boyandı.
Günahı odur ki, Odlar Yurdunun,
Azadlıq arzusu xalqı oyatdı.

(Gözlərin kor olsun “Qaraca  çoban”,
Yağı gələn yolu heç gömədinmi?
Dizlərin tutulsun, “Qaraca çoban”,
Sinəni qabağa heç vermədinmi?...)

Söylə Dədə-Qorqud, dərdli Arazdan,
Beyrəyi o yerdə görən oldumu?
Anadan, bacıdan, nişanlı qızdan,
Canını sadağa verən oldumu?...

Gedirəm, dünyada mən nə görmüşəm,
Sən Allah, gözümü bağlama ana...
Özümü Vətənə qurban vermişəm,
Düşmən qarşısında ağlama, ana...

Of, belə dünyanı qalsın virana,
Anana sən necə qıydın, ay oğul?
Gözümü tikmişdim toya, nişana,
Arzumu gözümdə qoydun, ay oğul?

(Baxdı Dədə-Qorqud, ağladı zar-zar,
Göz yaşı sellənib axdı çaylara.
Dedi: - Yol uzundur, sonsuz həyat var,
Böyük bir ümidlə baxdı çaylara.)

Bu dərdi anlayan, dərk edən hər kəs
Önündə baş əyir, inan qardaşım.
Ana müqəddəsdir, vətən müqəddəs,
Bir də müqəddəsdir sənin baş daşın.

Yetmiş il dözmüşük, sinə gərmişik,

Milli şüurumuz indi oyanıb.
Elə bil Bakını girov vermişik,
Hər bina önündə bir tank dayanıb.

Əyilmə, ey Bakı, sən dayan məğrur,
Səninlə bağlıdır soyadım, sanım.
Hər papaq altında bir igid durur,
İgidlər yurdusan, Azərbaycanım!

Abdallı F. 20 yanvar : şeir // Təhsil problemləri. – 2011. – 24-31 yanvar. – S. 9.